RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 30 (8623) ÇƏRŞƏNBƏ, 10 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Sosial ədalətin təmin edilməsi dövlət siyasətinin əsas prioritetidir

## Ölkədəki inkişafdan hər bir vətəndaşın layiqincə bəhrələnməsi qarşıya vacib vəzifə kimi qoyulub

Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsi məqsədilə mütəmadi olaraq mühüm qərarlar qəbul etməsi danılmaz faktdır. Dövlət başçısının bu il fevralın 5-də "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" imzaladığı sərəncama əsasən, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq cari il yanvarın 1-dək təyin olunmuş bütün növ əmək pensiyalarının sığorta hissəsinin, həmçinin istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində sözügedən tarixədək qeydə alınmış pensiya kapitalı məbləğlərinin indeksləşdirilməsi həyata keçiriləcək.

Bu sərəncamın icrası ölkədə sosial cəhətdən həssas təbəqənin maddi durumunun yaxşılaşmasında önəmli rol oynayacaq. Başqa sözlə, bu, həssas kateqoriyadan olan insanların sosial müdafiəsi istiqamətində dövlət tərəfindən atılan növbəti addım, eləcə də indiyədək uğurla aparılan sosial siyasətin davamlı xarakter daşıdığının təsdiqidir.

Son dövr bu istiqamətdə görülən işlərə nəzər yetirdikdə görürük ki, ölkənin iqtisadi imkanları artdıqca, sosial sahəyə daha çox vəsait ayrılır. Özü də bu vaxt sosial qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlətin yaratdığı imkanlardan faydalanır. Məsələn, əvvəllər fərdi mənzillər və yaşayış binaları qaçqın və məcburi köçkünlər üçün tikilirdisə, indi şəhid ailələri və Qarabağ müharibəsi əlilləri də yeni evlərlə təmin olunurlar.

Koronavirus pandemiyası dövründə dünya iqtisadiyyatında yaranan durğunluq sayəsində "kəmərsıxma" siyasəti həyata keçirilsə də, ölkəmizdə bunun əksini görürük və bu, təsadüfi deyil. Hələ pandemiya başlayanda Prezident İlham Əliyev bəyan etmişdi ki, əhalinin sosial müdafiəsinin təminatı davamlı olacaq. Məhz bu hesaba pandemiya zamanı sosial yardım alanların sayı artmış, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərilmişdir.

Üstəlik, belə çətin durumda dövlət başçısının qəbul etdiyi qərarlar sayəsində ölkədə heç bir sosial layihənin icrası dayandırılmadı. Əksinə, bu sahədə bir sıra rekordlara imza atıldı. Belə ki, ötən il rekord sayda - 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin edildi, şəhid ailələri üçün 1500 ev tikilərək istifadəyə verildi, orduda qüsursuz xidmət etmiş onlarca hərbçi mənzillə təmin olundu.

Ardı 4-cü səh.

# Böyük Britaniya şirkətləri işğaldan azad olunmuş ərazilərdə bərpa prosesində iştirak edəcəklər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın dövlət nazirini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Sizi Azərbaycanda görməyə çox şadam. Əminəm ki, səfəriniz yaxşı nəticələrlə çox uğurlu olacaq. Bu, bir daha ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərini və əlbəttə ki, əməkdaşlığımızı davam etdirmək üçün gələcək planlarımızı əks etdirir. Çox yaxşı siyasi təmaslarımız, çox fəal siyasi dialoqumuz var. Sizin Azərbaycana səfəriniz bunu bir daha nümayiş etdirir.

Əlbəttə ki, enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir. Biz böyük layihə olan "Cənub qaz dəhlizi"ni tamamlamağa çox şadıq. Bilirsiniz ki, BP bizim strateji tərəfdaşımızdır. Bu şirkət Azərbaycanda həyata keçirilən əsas layihələrdə lap əvvəldən investor qismində iştirak edib. "Əsrin müqaviləsi"nin vaxtının uzadılmasından sonra bizim əməkdaşlığımız bir çox onilliklər ərzində davam edəcəkdir. Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq bizim qarşımızda indi yeni imkanlar var.



Ardı 2-ci səh.

# Sürətli inkişafın və səmərəli islahatların yeni hədəfləri

## Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişafa dair milli prioritetlər dayanıqlı yüksəliş strategiyasının növbəti mükəmməl yol xəritəsidir

Sosial-iqtisadi tərəqqinin keyfiyyətcə yeni mərhələsində Azərbaycan Respublikasının başlıca məqsədlərindən biri də ictimai həyatın bütün sahələrinin modernləşdirilməsi yolu ilə inkişaf etmiş ölkələr sırasına daxil olmaqdır. Təcrübə göstərir ki, konkret hədəflərə əsaslanan strategiya və baxışlar sistemi olmadan iqtisadi sahədə yüksək nəticələrin qazanılması və perspektiv vəzifələrin reallaşdırılması qeyri-mümkündür. Bu və digər hədəfləri uğurla gerçəkləşdirmək isə dərin iqtisadi təfəkkürə malik güclü siyasi liderlər sayəsində mümkün olur.



Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını 2003-cü ildən inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev ötən 18 ildə ölkəmizi Cənubi Qafqaz regionunun sayılıb-seçilən, nüfuzlu dövlətlərindən birinə çevirib. 2003-2020-ci illərdə ölkənin siyasi və sosial-iqtisadi həyatında fundamental dəyişikliklər baş verib, iqtisadi siyasətdə çevikliyin təmini, struktur dəyişiklikləri ilə institusional islahatların paralel şəkildə aparılması konkret hədəflərə çatmağa imkan yaradıb.

### Gələcəyə konseptual baxış

Son illərdə milli iqtisadiyyatın sosialyönümlü olması, insan amilinin ön planda dayanması xüsusilə diqqəti çəkir. Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə bildirib ki, dövlətimizin yürütdüyü siyasətin əsasında insan amili, vətəndaşların maraq və mənafeləri dayanır. Dövlət başçısının rəhbərliyi ilə aparılan və sosialyönümlü mahiyyəti ilə diqqəti çəkən çoxşaxəli islahatların əsas hədəfi inkişaf prosesində hər bir vətəndaşın iştirakını təmin etmək, mövcud potensialdan hər bir fərdin bacarıq və qabiliyyətinə görə ədalətli şəkildə yararlanmaqdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ölkədə postneft iqtisadiyyatının formalaşdırılması üçün kompleks, sistemli və dinamik iqtisadi islahatların həyata keçirilməsi labüddür. İqtisadi proqnozlara əsaslanmaqla iqtisadi ideyaların praqmatik şəkildə gerçəkləşməsini təmin etmək və güclü inkişaf arxitekturası formalaşdırmaq dövlətin strateji məqsədlərindəndir. Bu məqsəd və hədəflərə nail olmaq üçün, ilk növbədə, strateji yol xəritələrinin hazırlanması və icrası məqsədəuyğun hesab edilir.

Ardı 3-cü səh.



# İndi dünya Azərbaycanı həm də qaz ixrac edən ölkə kimi tanıyır

"Cənub qaz dəhlizi"nin tam sistem kimi işə salınması Azərbaycanın həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. Azərbaycan bu nəhəng layihənin təşəbbüskarı və aparıcı qüvvəsi olaraq Avropanın enerji xəritəsini yenidən tərtib etdi.

Neftini dünya bazarlarına bir neçə ixrac marşrutu ilə çıxaran ölkəmiz indi də hasil etdiyi mavi yanacağı bir-birinə calanan üç möhtəşəm kəmərlə birbaşa Xəzərdən Adriatik dənizinin sahillərinə çatdırdı.

2020-ci ilin qaz hasilatına və ixracına aid göstəriciləri deyilənlərin növbəti təsdiqidir. Belə ki, keçən il Azərbaycanda 37,1 milyard kubmetr qaz hasil edilib. Bu, 2019-cu illə müqayisədə 1,5 milyard kubmetr, yəni 4,2 faiz çoxdur.

Qaz həcmlərinin 7,3 milyard kubmetrini Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR dənizdə və quruda istismar etdiyi karbohidrogen yataqlarından çıxarıb. Bu yataqlar sırasına dayazsulu "Günəşli"ni, "Neft Daşları"nı, "Bulla-dəniz"i və bir sıra digərlərini daxil etmək olar.

Ardı 4-cü səh.

# Azərbaycanda vaksinasiyanın ikinci mərhələsi başlandı

"Dünya üzrə vaksinləmənin sayı yoluxma faktlarının sayını üstələyib. Bu, bir tərəfdən yaxşı xəbərdir və belə qısa zaman kəsiyində gözəl nailiyyətdir. Lakin bu peyvəndləmələrin dörddəüçündən çoxu 10 ölkənin payına düşür ki, qlobal ÜDM-in də təxminən 60 faizi bu ölkələrdə toplanır".



Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Gebreyesus dünyanın bir nömrəli problemi olan koronavirus əleyhinə peyvəndlənmə ilə bağlı danışarkən deyib.

O qeyd edib ki, ümumi əhalisi 2,5 milyarda bərabər olan təxminən 130 ölkə hələ vaksinin birinci dozasını almayıb. Gebreyesus əhalinin daha həssas təbəqəsini və tibb işçilərini artıq vaksinləmədən keçirmiş dövlətləri bu vaksinləri digər ölkələrlə bölüşməyə çağırıb.

Azərbaycan Prezidenti İlham Əliyev də BMT-nin Baş Assambleyasındakı çıxışında peyvəndlərin ədalətli bölgüsünün vacibliyini diqqətə çatdırmış, zəngin ölkələrin kasıb dövlətlərin vətəndaşları üçün peyvəndlər almasını təklif etmişdi. Təəssüf ki, ölkəmizin vaksinasiya mövzusunda təklif etdiyi humanist ideyaları ilə bir çox inkişaf etmiş ölkələrin ədalətsiz və eqoist yanaşması kontrast təşkil edir.

Ardı 5-ci səh.

# Erməni diasporu Paşinyana qarşı sərt müxalifətə keçir

Ermənistn müxalifətinin Paşinyan hakimiyyətinin istefası üçün 3 aya yaxındır keçirdiyi aksiyalar ölkədə gərginliyi pik həddə çatdırıb.



Düzdür, insanların müxalifətə etimad göstərməməsi səbəbindən onlar istəyini reallaşdıra bilmir. Lakin aramsız aksiyaların ciddi problemlərə səbəb olduğu göz önündədir.

Bütün bunların fonunda son günlər müxalifət cəbhəsində yeni proseslər baş qaldırmaqdadır. Belə ki, Paşinyanı hakimiyyətdən uzaqlaşdıra bilməyən müxalifətin yaratdığı ittifaqda parçalanmalar baş verib. Müxalif partiyaların birləşdiyi "Vətənin xilası naminə hərəkat"ın bəzi üzvləri artıq yeni hərəkat yaradıblar.

"Rusiya ilə birlikdə güclü Ermənistan: yeni ittifaq uğrunda" adlı yeni hərəkata keçmiş hakimiyyətin nümayəndələri başçılıq edirlər. Onların da məqsədi Paşinyanın istefasına nail olmaqdır. Amma Vazgen Manukyanın başçılıq etdiyi və bu vaxta qədər geniş xalq kütlələrini baş nazirə qarşı qaldırmaqda uğur qazana bilməyən hərəkatdan fərqli olaraq, onlar həm də Rusiya ilə "yeni ittifaq" tələb edirlər. Hərəkatın Yerevan Opera və Balet Teatrında keçirilmiş təsis konfransında Ermənistanın Konstitusiya Hüququ İttifaqı Partiyasının lideri Hayk Babuxanyan deyib ki, onların hərəkatı apolitikdir.

Ardı 7-ci səh.

# Böyük Britaniya şirkətləri işğaldan azad olunmuş ərazilərdə bərpa prosesində iştirak edəcəklər

*Əvvəli 1-ci səh.*

BP tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz var. Bu, bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir. Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir. Yeri gəlmişkən, iki gündən sonra Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının yeddinci iclası keçiriləcək. Bu iclasda biz nailiyyətləri nəzərdən keçirəcəyik və gələcək əməkdaşlığa ümid bəsləyəcəyik. Əlbəttə ki, Birləşmiş Krallıqdan Azərbaycana qoyulan investisiyalar bizə ölkəni müasirləşdirməyə çox kömək edib. Bu investisiyalar əsasən enerji sektoruna yatırılmışdır - demək olar ki, 30 milyard dollardır. Bu, bizə iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunmuş gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanını vermişdir. Ona görə də mən əminəm ki, qarşıdakı illərdə bizim diqqətimizi cəmləşdirəcəyimiz əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaq.

Görüşümüzdən əvvəl mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, demək olar, 600 Britaniya şirkəti Azərbaycanda qeydiyyatdan keçib. Bu, həqiqətən də iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin yaxşı göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma üçün böyük potensialımız var. Biz artıq Britaniya şirkətləri ilə təmaslara başlamışıq. Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və mən ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir. Hər şey dağılıb.



Bərpa olunan enerji sahəsində böyük potensial var. Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı günəş, külək, su potensialı var. Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri "yaşıl zona" ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir. Sözsüz ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr böyük əhəmiyyət kəsb edir. Bir daha ölkəmizə xoş gəlmisiniz.

Böyük Britaniyanın dövlət naziri **Vendi MORTON** dedi:

- İkitərəfli münasibətlərimizə gəldikdə, biz bir çox sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq daha da genişlənəcəkdir. Mən dünən səfirimiz tərəfindən təşkil olunmuş proqram sayəsində Azərbaycan mədəniyyəti ilə tanış oldum.

❖ ❖ ❖

Görüşdə postmünaqişə vəziyyəti, işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyasının tətbiqi, vətəndaş cəmiyyətinin inkişafı, gender bərabərliyi, energetika, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkilləri çəkdirildi.

# Azərbaycanda idman daim diqqət mərkəzindədir




Fevralın 9-da Milli Məclisin Gənclər və idman komitəsində Vətən müharibəsinin iştirakçısı Yusif Əhmədov və bir qrup idmançı ilə növbəti görüş keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev 2020-ci ilin tariximizə qızıl hərflərlə düşməsi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Ordumuzun döyüş meydanında misli görünməmiş Qələbəsi, nəticədə uzun illərdir davam edən nisgilə birdəfəlik son qoyulması barədə söhbət açıb. Vitse-spiker əzəli və əbədi torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda döyüşlərdə şəhid olan həmvətənlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyib.

Adil Əliyev döyüş və diplomatiya meydanlarında qazanılmış Zəfərimizin idman yarışlarında da uğurla davam etdirilməsinin zəruriliyini bir daha diqqətə çatdırıb, Azərbaycanda idmanın daim diqqət mərkəzində olduğunu, ölkəmizin dünyada idmana ən çox önəm verən dövlətlərdən biri olduğunu qeyd edib. Vitse-spiker ölkəmizin beynəlxalq olimpiadaların təşkilatçısı kimi nüfuzunu nəzərə alaraq idmançılarımızın da yarışlara daha əzmlə hazırlaşmasının zəruriliyini bildirib.

Sonda Vətən müharibəsi qazisi Yusif Əhmədova və ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edən idmançıların bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim olunub.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin videoformatda növbəti iclası olub

Fevralın 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin onlayn formatda növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr komitəsindən AZƏRTAC-a bildirilib ki, komitənin sədri Tahir Mirkişili gündəliyə 4 məsələ daxil edildiyini deyib. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) məsələni təqdim edən komitə sədri qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı deputatların irəli sürdükləri təkliflərin bir çoxunun nəzərə alındığını diqqətə çatdırıb.

Onlayn iclasda aparılan müzakirədə deputatlar qanun layihəsinin ikinci oxunuş üçün hazırlanmış variantında buğdanın idxalı və satışının, həmçinin buğda ununun və çörəyin istehsalı və satışının ƏDV-dən azad edilməsi müddətinin 5 ildən 7 ilədək uzadılmasını (2017-ci il yanvarın 1-dən etibarən), eləcə də kəpəyin istehsalı və satışının ƏDV-dən azad edilməsi müddətinin 3 ildən 5 ilədək (2019-cu il martın 1-dən etibarən) uzadılmasını, qəlyan üçün hazırlanan tütünlərin aksiz vergilərinə cəlb edilməsini, həmçinin elektron siqaretlər üçün mayeyə tətbiq olunan aksiz vergisinin hər litr üçün 100 manat olmasını (birinci oxunuşda hər litr üçün 220 manat idi) nəzərdə tutan dəyişikliklərə müsbət münasibət bildiriblər.

Sonra "İşsizlikdən sığorta haqqında" qanunda edilən dəyişikliklə bağlı (ikinci oxunuş) məlumat verilib ki, təklif olunan dəyişikliyə əsasən, sığorta ödənişinin təyinatı zamanı vətəndaş-məmur təması, habelə sığortaolunan və sığortaedən tərəfindən müxtəlif sənədlərin təqdim edilməsi zərurəti aradan qaldırılır.

Komitə sədri bildirib ki, "Dövlət rüsumu haqqında" qanunda edilən dəyişikliyə (ikinci oxunuş) görə, layihədə göstərilən bir sıra hallarda notariat hərəkətləri ilə əlaqədar xidmətə görə haqq tutulmayacaq.

İclasda deputatların nəzərinə çatdırılıb ki, "Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması haqqında" qanunda edilən dəyişiklik (birinci oxunuş) Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddətinin (qanunun 2.1-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla) daha bir il - 2022-ci il yanvarın 1-dək uzadılmasını və yoxlamaların dayandırıldığı müddət başa çatdıqdan sonra da həmin dövrdəki fəaliyyətlə bağlı yoxlamaların aparılmasının qadağan edilməsini ehtiva edir.

Onlayn iclasda gündəlikdəki qanun layihələri ətraflı müzakirə olunub. Deputatlar Ziyad Səmədzadə, Əli Məsimli, Vahid Əhmədov, Vüqar Bayramov, Anar Məmmədov, Mahir Abbaszadə, Rüfət Quliyev, İqbal Məmmədov, Ağalar Vəliyev, Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, Anar Məmmədov rəy və təkliflərini bildiriblər.

Fikir mübadiləsinin yekununda komitə iclasında baxılan bütün qanun layihələri baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Daxili İşlər Nazirliyi ölkə əhalisinə müraciət edib

Mülki şəxslərin işğaldan azad olunmuş ərazilərə müvafiq icazə almadan, eləcə də nəzarət postlarından kənar yollarla keçmələrinin onların həyat və sağlamlıqları üçün ciddi təhlükə yaratması və buna görə də belə hərəkətlərdən çəkinmələri barədə dəfələrlə xəbərdarlıqlar edilib.

Bu barədə Daxili İşlər Nazirliyinin əhaliyə müraciətində qeyd olunub.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə bildirilib ki, buna baxmayaraq, ayrı-ayrı şəxslərin həyat və sağlamlıqlarını təhlükə qarşısında qoyaraq nəzarət postlarından kənar yollarla işğaldan azad olunmuş, lakin minalardan tam təmizlənməmiş ərazilərə daxil olmaları barədə faktlara hələ də tez-tez rast gəlinir. Bu cür təhlükəli halların qarşısının vaxtında alınması məqsədilə aidiyyəti dövlət qurumlarının, o cümlədən daxili işlər orqanlarının əməkdaşları tərəfindən zəruri qabaqlayıcı profilaktik tədbirlər həyata keçirilir, qanunsuz yollarla ərazilərə keçən şəxslər aşkarlanaraq barələrində qanunvericiliyin tələbinə uyğun inzibati tədbirlər görülür.

Hazırda həmin ərazilərdə mina və partlamamış hərbi sursatın təmizlənməsi əməliyyatları da davam etdirilir.

Daxili İşlər Nazirliyi vətəndaşlara bir daha müraciət edərək ərazilərin minalardan tam təmizlənməsi işi başa çatanadək belə səfərlərdən çəkinməyə çağırır. Qeyd olunub ki, əks təqdirdə, belə səfərlər onların həyat və sağlamlıqlarını itirmələri ilə nəticələnə bilər.

# Azərbaycan Ordusunun dörd hərbi qulluqçusu mina partlaması nəticəsində xəsarət alıb

Fevralın 8-də Tərtər rayonu istiqamətində mina partlaması nəticəsində Azərbaycan Ordusunun 4 hərbi qulluqçusu - Duniyev Kamil Əlibala oğlu, Əhmədzadə Həsən Alik oğlu, Orucov Elşad Lətif oğlu, Ağayev Məhərrəm Oktay oğlu xəsarət alıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin tibbi yardım göstərildikdən sonra yaralılar hospitala təxliyə ediliblər. Hazırda hərbi qulluqçular həkimlərin tam nəzarəti altındadır. Vəziyyətləri stabildir, həyatları üçün təhlükə yoxdur.

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası keçirilib



Fevralın 9-da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin onlayn formatda növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, iclası açan komitə sədri Hicran Hüseynova bildirib ki, iclasın gündəliyinə 2 məsələ daxildir. Bunlar Ailə Məcəlləsində və Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihələridir.

Gündəlikdəki birinci məsələ barədə məlumat verən Hicran Hüseynova diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2018-ci ildə "Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı fərmana əsasən, Ailə Məcəlləsinin övladlığagötürmə ilə bağlı müddəaları təkmilləşdirilib və bu sahədə xidmətlərin aparılması üçün elektron idarəetmə sistemi yaradılıb. İndi təklif edilən dəyişikliklər isə övladlığa götürmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə mühüm töhfə olacaq və əsas məqsəd uşaqların hüquq və maraqlarının qorunması, onların sağlam ailə mühitində böyüməsi üçün etibarlı zəmin yaratmaqdır. Dəyişikliyə görə, uşaqları övladlığa götürmək istəyən qohumları üçün övladlığagötürmə proseduru asanlaşdırılır, bəzi prosedurlar aradan qaldırılır.

Layihə barədə danışan komitənin sədr müavini Jalə Əliyeva, komitə üzvləri Sədaqət Vəliyeva, Könül Nurullayeva, Nigar Arpadarai, Ramin Məmmədov, Pərvin Kərimzadə dəyişikliklərin zamanın tələbinə uyğun və aktual olduğunu qeyd ediblər, layihə barədə təkliflərini diqqətə çatdırıblar.

Layihə birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Sonra gündəliyin ikinci məsələsi barədə məlumat verən komitə sədri Hicran Hüseynova bildirib ki, Mülki Prosessual Məcəlləyə təklif olunan dəyişiklik (birinci oxunuş) uyğunlaşdırma xarakteri daşıyır və qanunvericiliyin təkmilləşdirilməsinə xidmət edir.

Bu qanun layihəsi də birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Bununla da Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin onlayn formatda növbəti iclası başa çatıb.

İclasda komitə üzvləri Rəşad Mahmudov, Tamam Cəfərova, Sevil Mikayılova və Rauf Əliyev də iştirak ediblər.

# *Vendi MORTON:* "Böyük Britaniya Azərbaycanın ərazilərinin minalardan təmizlənməsi sahəsində fəaliyyətinə yardım etməyə hazırdır"

Fevralın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonla görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, dövlət naziri Vendi Mortonu səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafdan məmnunluğunu ifadə edib.

Bölgədəki cari vəziyyətdən bəhs edən nazir Ceyhun Bayramov 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı qarşı tərəfə ətraflı məlumat verib. Birgə bəyanatların icra edilməsinin bölgədəki sülh, təhlükəsizlik, əmin-amanlıq və rifahın təminatı baxımından əhəmiyyəti, eləcə də bölgədə yeni əməkdaşlıq imkanları açdığı qeyd olunub. Azərbaycanın sözügedən bəyanatların icrası ilə bağlı bütün müvafiq addımları atdığı bildirilib, o cümlədən humanitar sahədə görülən işlərlə bağlı qarşı tərəfə məlumat verilib.

Üçtərəfli bəyanatlara əsasən, bölgədə nəqliyyat-kommunikasiya xətlərinin açılacağı, habelə yeni nəqliyyat dəhlizinin yaradılmasının bölgədə tərəqqinin təmin olunmasına və insanlar arasında münasibətlərin normallaşmasına xidmət edəcəyi vurğulanıb.

Ermənistanda bəzi insanlar tərəfindən sərgilənən mənfi ritorikanın heç də münasibətlərin normallaşmasına xidmət etmədiyi, əksinə, xalqlararası ədavətin dərinləşdirilməsi məqsədi güddüyü qarşı tərəfin diqqətinə çatdırılıb. Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdiyi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin icrasını təmin etdiyi vurğulanaraq mövcud olan yeni reallığın hər kəs tərəfindən qəbul olunmasının əhəmiyyəti vurğulanıb. Bu xüsusda rəsmi Bakının icazəsi olmadan Azərbaycan ərazilərinə edilən hər hansı səfərin qanunsuz xarakter daşıdığı və buna münasibətdə müvafiq tədbirlərin həyata keçirildiyi bildirilib.

Tərəflər ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri üzrə, o cümlədən strateji dialoq məsələlərini özündə ehtiva edən siyasi məsləhətləşmələrin bir çox aspektlərinə dair ətraflı fikir mübadiləsi aparıblar. Qarşılıqlı səfərlərin münasibətlərin inkişafına töhfə verməsi, hüquq-müqavilə bazasının möhkəmləndirilməsi, enerji sahəsində əməkdaşlıq və digər məsələlər müzakirə olunub.

Dövlət naziri Vendi Morton gender bərabərliyi, yaşıl enerjinin inkişafı və iqlim dəyişikliyinə qarşı tədbirlər sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. O, Böyük Britaniyanın Azərbaycanın ərazilərinin minalardan təmizlənməsi sahəsində fəaliyyətinə yardım etməyə hazır olduğunu vurğulayıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycanla Böyük Britaniya arasında ətraf mühit sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb

Azərbaycanda işgüzar səfərdə olan Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Morton ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevlə görüşüb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iqlim dəyişmələrinə təsirlərin azaldılması, tullantıların, o cümlədən plastik tullantıların düzgün idarə edilməsi, səhralaşma ilə mübarizə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb, əməkdaşlığın perspektivləri müzakirə olunub.

Həmçinin iki ölkə arasında ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

# Baş Prokurorluğun əməkdaşları Avropa İttifaqının TAIEX aləti çərçivəsində onlayn təlimdə iştirak ediblər

Avropa Komissiyası tərəfindən TAIEX texniki yardım aləti çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun sorğusu əsasında "COVID-19 pandemiyası dövründə qarşılıqlı hüquqi yardımın göstərilməsi və istintaq hərəkətlərinin onlayn qaydada keçirilməsi" mövzusunda videokonfrans formatında ekspert missiyası təşkil olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Prokurorluğun əməkdaşlarının iştirak etdikləri təlimdə Xorvatiya Respublikası Ədliyyə və İdarəetmə Nazirliyinin Antikorrupsiya sektorunun müdiri Tamara Miserda və İtaliya Respublikası Daxili İşlər Nazirliyinin baş polis inspektoru Maurisio Varaneze ekspert qismində çıxış ediblər.

Qeyd edək ki, TAIEX Avropa Komissiyasının Genişlənmə üzrə Baş Direktorluğunun Texniki yardım və informasiya mübadiləsi mexanizmidir. Seminarlar, ekspert missiyaları və araşdırma səfərlərini təşkil etmək kimi dəstəkləyici tədbirlər vasitəsilə TAIEX Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması, tətbiqi və həyata keçirilməsində Azərbaycanın dövlət qurumları ilə əməkdaşlıq imkanını yaradır. Bu tədbirin əsas məqsədi də Baş Prokurorluğun struktur qurumları əməkdaşlarının pandemiya dövründə qarşılıqlı hüquqi yardım və istintaq hərəkətlərinin keçirilməsi sahələrindəki biliklərinin artırılması və Avropa təcrübəsinin öyrənilməsi olub.

Ekspertlər Tamara Miserda və Maurisio Varaneze təlimin mövzusu ətrafında çıxış edərək pandemiya dövründə qarşılıqlı hüquqi yardım və istintaq hərəkətlərinin onlayn qaydada keçirilməsi sahəsində həmin ölkələrin təcrübəsi və bu sahədə qanunvericiliyin tətbiqi xüsusiyyətləri, şəxslərin videokonfrans formatında dindirilməsinin hüquqi və praktiki tərəfləri barədə ətraflı məlumat verilməklə təqdimatlar edib, istintaq olunub cinayət işlərindən nümunələr göstəriblər.

Tədbir zamanı iştirakçıları maraqlandıran suallar ekspertlər tərəfindən ətraflı cavablandırılıb.

# Baş Prokurorluq işğaldan azad olunmuş ərazilərimizdə mina təhlükəsi ilə əlaqədar videoçarx paylaşıb

Azərbaycan Respublikasının Baş Prokurorluğu işğaldan azad olunmuş ərazilərimizdə mina təhlükəsi ilə əlaqədar videoçarx yayımlayıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan videoçarxda dərin təəssüf hissilə bildirilib ki, dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, insanların işğaldan azad edilmiş ərazilərdə minaya düşərək həlak olmaları və ya ağır dərəcəli bədən xəsarətləri almaları faktları hələ də baş verir.

İşğaldan azad edilmiş ərazilərdə 2020-ci il noyabrın 10-dan hazırkı vaxtadək minaya düşmələri nəticəsində 5 hərbi qulluqçu, 9 mülki şəxs həlak olub, 52 hərbi qulluqçu, 8 mülki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Baş Prokurorluq xəbərdarlıq edir ki, azad olunmuş ərazilərin minalardan təmizlənməsi işi başa çatanadək qanunsuz səfər hallarına yol vermiş şəxslər barəsində qanunvericilikdə nəzərdə tutulmuş ən ciddi tədbirlər görüləcək.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən qeyd olunan məsələnin həssaslığı və əhəmiyyəti nəzərə alınaraq növbəti dəfə maarifləndirici videoçarx hazırlanıb.

Videoçarxı Baş Prokurorluğun sosial şəbəkə səhifələrindən izləmək mümkündür.

# Baş Prokurorluğun "Instagram"dakı səhifəsində növbəti sual-cavab sessiyası keçiriləcək

Fevralın 12-də saat 09:30-dan 12:30-dək Baş Prokurorluğun "Instagram" sosial şəbəkəsindəki səhifəsində prokurorluqla bağlı növbəti sual-cavab sessiyası keçiriləcək.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar sessiyada iştirak edərək prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı maraqlandıqları mövzularda suallarla müraciət edə bilərlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən müasir, vətəndaş yönümlü və onu məmnun edən tədbirlərin həyata keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı kimi, vətəndaş məmnunluğunun və aşkarlığın təmin edilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sosial şəbəkə səhifələrindən daxil olmuş çoxsaylı suallar mütəmadi qaydada cavablandırılır.

# Sürətli inkişafın və səmərəli islahatların yeni hədəfləri

## Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişafa dair milli prioritetlər dayanıqlı yüksəliş strategiyasının növbəti mükəmməl yol xəritəsidir



*Əvvəli 1-ci səh.*

Ölkənin gələcək inkişaf mərhələlərinin əsas konturlarının müəyyənləşdirilməsi zərurəti həm də onunla şərtlənir ki, respublikamızda aparılan islahatlar hər bir dövrün qlobal çağırışlarına əsaslanır. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası konkret zaman intervalında inkişafın əsas konturlarını müəyyənləşdirməklə yanaşı, gələcək barədə proqnozları da özündə ehtiva edirdi. Konsepsiyanın iqtisadi istiqamətlərinə, ilk növbədə, qeyri-neft sektorunun genişləndirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olunması; iqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndirilməsinin genişlənməsi; ölkənin ümumi daxili məhsulunun tərkibində, dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi; iqtisadiyyatda innovasiyaların tətbiqinin təmini üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi; mövcud resurslardan və coğrafi mövqedən istifadə olunmaqla Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi inkişafının müasir tələblər səviyyəsində təmini; iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və milli məhsulların dünya bazarlarında layiqli yer almasına nail olunması tədbirləri daxil idi.

### Davamlı inkişafın mükəmməl yol xəritəsi

Proqnoz dedikdə hər hansı iqtisadi sistemin gələcək vəziyyəti üçün kəmiyyət və keyfiyyət parametrləri formasında əsaslandırılmış tədbirlər kompleksi başa düşülür. Proqnozlaşdırmada əsas məqsəd hər hansı hadisə, yaxud iqtisadi proses haqqında əvvəlcədən düzgün və obyektiv təsəvvürün yaradılmasıdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" adlı sənəd gələcəyin iqtisadi proqnozlaşdırılması və inkişafın əsas prioritetlərinin müəyyənləşdirilməsi baxımından son dərəcə əhəmiyyətli olub. Ölkəmizin iqtisadi qurumları ilə yanaşı, yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, habelə ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində hazırlanmış strateji yol xəritələri qısa, orta və uzunmüddətli dövrləri əhatə edir. Sənəd 2020-ci ilədək olan dövr üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planından, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

Strateji Yol Xəritəsi geniş və çoxşaxəli hədəfləri özündə birləşdirən konseptual sənəd olaraq iqtisadiyyatın hərtərəfli təhlilinə əsaslanan gələcəyə baxış bucaqlarını özündə əks etdirir. Sənəddə davamlı inkişafın məqsəd və prinsiplərinə uyğun olaraq, iqtisadi artımla sosial inkişafın və sosial bərabərliyin həmrəyliyinə əsaslanan güclü, şəffaf və açıq iqtisadiyyatın yaradılması nəzərdə tutulub.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş iclasında dərin məzmunlu nitq söyləyən Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin gələcək inkişaf perspektivləri ilə bağlı deyib: "Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə biz daim irəliyə baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək".

### Sürətli inkişafın diktə etdiyi milli prioritetlər

Ölkədə və regionda, ümumilikdə qlobal planda cərəyan edən mürəkkəb siyasi, iqtisadi və humanitar proseslər müasir islahatçı baxışın və idarəetmə formalarının tətbiqini aktuallaşdırdığından dövlət başçısı rəhbəri olduğu komandanın bu çağırışlara hazır olmasını son dərəcə vacib sayır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş *"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* adlı sənəd ölkənin uzunmüddətli dayanıqlı inkişaf hədəflərinin müəyyənləşdirilməsi və islahatların konkret proqramlar əsasında reallaşdırılması baxımından yeni imkanlar açıb.

2018-ci ilin aprel ayında keçirilmiş prezident seçkilərindən sonra aparılan sistem xarakterli islahatlar - hökumətin tərkibinin yenilənməsi, insan amilinin sosial-iqtisadi islahatların əsas prioritetinə çevrilməsi, ən əsası, 2020-ci ildə ərazilərimizin Ermənistanın işğalından azad edilməsi sosial-iqtisadi və innovativ inkişaf sahələrində yeni vəzifələr müəyyənləşdirib. Sərəncam ilk növbədə "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsinin hazırlanmasını nəzərdə tutur. Sərəncamla strategiyanın hazırlanması prosesinə qabaqcıl beynəlxalq təşkilat və ixtisaslaşmış məsləhətçi şirkətlərin, aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunması tapşırılıb.

Sənəd yaxın və orta perspektivdə ölkəmizin qarşısındakı əsas hədəf və vəzifələrin açıq müzakirə və dinləmələr əsasında müəyyənləşdirilməsinə, bu zaman cəmiyyətin sosial gözlənti və istəklərinin nəzərə alınmasına imkan verir. Milli prioritetlər əsasında hökumət qarşısında 5 mühüm istiqamətdə islahat, layihə və tədbirlərin reallaşdırılması vəzifəsi qoyulub: 1) dayanıqlı, artan rəqabət qabiliyyətli iqtisadiyyat; 2) dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; 3) rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; 4) işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; 5) təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Ümumilikdə sosial rifah səviyyəsinin davamlı artımı məqsədilə yüksək, dayanıqlı, inklüziv və özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətləndirilməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini perspektiv üçün qarşıda duran əsas vəzifələr sırasındadır. Sənəddə şaxələndirmə və qeyri-neft sektorunun inkişafı tədbirlərinin davam etdirilməsi, yerli və xarici sərmayələrin təşviqi, şəffaf özəlləşmə strategiyasının həyata keçirilməsi, kapital və sığorta bazarının inkişafı və digər mühüm məsələlər nəzərdə tutulub.

Sənəddən irəli gələn vəzifələrin icrası Azərbaycanın Cənubi Qafqazın iqtisadi arxitekturasının müəyyənləşdirilməsində mövcud rolunu və statusunu daha da möhkəmləndirəcək. Milli prioritetlər eyni zamanda Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Sənəddə daxili və xarici təsirlərə dayanıqlıq baxımından makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi, yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılması, valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert payının tədricən azaldılması, inflyasiyanın idarə olunması və s. kimi mühüm vəzifələr müəyyənləşdirilib.

### Şəffaflıq səmərəli idarəçiliyin vacib meyarıdır

Son illər dövlət başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gənclərin irəli çəkilməsi islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək niyyətindən irəli gəlib. Bu islahatlar dövlət qulluğunda yaradıcı düşüncəli, islahatlara meyilli menecer və texnokrat baxışlı məmur elitasının təmsilçiliyinə imkan yaradıb.

Təsadüfi deyildir ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" şəffaflığa xidmət edən tədbirlərin davam etdirilməsini də vacib məsələ kimi müəyyən edib. Qarşıdakı illərdə məhkəmə-hüquq sisteminin fəaliyyətində şəffaflığın artırılması, haqsız rəqabətin qarşısının alınması, dövlət investisiyaları və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsinin yüksəldilməsi, idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqinin genişləndirilməsi, korrupsiya ilə mübarizənin gücləndirilməsi, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikasının formalaşdırılması məsələləri öz həllini tapmalıdır.

Ümumilikdə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, modernləşmə proseslərinin dərinləşdirilməsi və innovativ idarəetmə modellərinini tətbiqi Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sistem xarakterli islahatların əsasını təşkil edir. 2016-cı il 26 sentyabr tarixdə keçirilmiş ümumxalq referendumu əsasında ölkədə vitse-prezidentlik institutunun yaradılması, 2017-ci il 21 fevral tarixdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması ölkədə həyata keçirilən çoxşaxəli islahatların davamlığını və dövlət idarəçiliyinin səmərəliliyini yüksəltmək məqsədinə xidmət edib.

Xüsusi vurğulamaq lazımdır ki, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi 4 illik uğurlu fəaliyyəti bu prosesin daha da sürətlənməsini təmin edib və idarəçiliyə yeni nəfəs gətirib. Cəmiyyətdə mütləq çoxluğun qənaəti bundan ibarətdir ki, Heydər Əliyev Fondunun prezidenti kimi vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını inamla doğruldub.

### Nəzarət funksiyaları gücləndirilir

Dövlət başçısının son 15 ildə imzaladığı fərman və sərəncamlar, milli fəaliyyət planları cəmiyyətdə şəffaflıq və hesabatlılığın daha da yüksəldilməsi baxımından əhəmiyyətli olub. Ötən müddətdə ölkə Prezidenti tərəfindən imzalanmış "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı", "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", Açıq Hökumətin təşviqinə dair (2012-2015, 2016-2018 və 2020-2022-ci illər) milli fəaliyyət planları qeyd olunan məqsədlərin reallaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir.

Son 10 ildə "ASAN Xidmət", "ASAN Kommunal", "DOST" və s. kimi yeni idarəçilik modellərinin tətbiqində məqsəd vətəndaş məmnunluğunu təmin etmək, ictimai həyatın bütün sahələrində bürokratik amillərin aradan qaldırılmasına nail olmaq, insan amilinin prioritetliyini təmin etməkdir.

Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2021-ci il tarixli "Dövlət Nəzarəti İnformasiya Sisteminin yaradılması haqqında" fərmanı milli proritet kimi önə çəkilən bir sıra məqsədlərin reallaşdırılmasına imkan verir. Belə bir informasiya sisteminin yaradılması Azərbaycanda son 10 ildə "e-hökumət" quruculuğu sahəsində həyata keçirilən sistemli və ardıcıl innovativ-texnoloji quruculuq prosesinin davamı və mühüm tərkib hissəsidir. Dövlət Nəzarəti İnformasiya Sistemi Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının, eləcə də Azərbaycan Respublikası Birinci vitse-prezidentinin və Prezident Administrasiyası rəhbərinin tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsini təmin etməlidir.

Fərmana əsasən yeni sistem yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin etməyə imkan verəcək. Sistemin fəaliyyəti 1) səmərəlilik - mümkün qədər az resursla nəzərdə tutulan nəticənin əldə olunması; 2) istifadə rahatlığı - informasiya mübadiləsinin əlavə əməliyyat aparılmadan birbaşa yerinə yetirilməsi; 3) çeviklik - informasiya sisteminin dəyişən tələblərə uyğun olaraq sürətli yenilənməsi və dəyişdirilməsi meyarlarına əsaslanacaq.

Son illərdə icraedici, qanunverici və məhkəmə hakimiyyətində paralel şəkildə aparılan, müasir çağırışlara əsaslanan islahatlar cəmiyyətdə şəffaflığın və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə xidmət edib. Ölkə başçısının 23 noyabr 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya" dövlət idarəçiliyinin müasir çağırışlara uyğun təşkili, müasir təfəkkürlü, cəmiyyətin gözləntilərinə cavab verə bilən dövlət qulluqçusu korpusunun yaradılması, onların peşəkarlığının və fəaliyyət səmərəliliyinin artırılması, mütərəqqi motivasiya modellərinin tətbiqi məsələlərini önə çəkib.

Yeni informasiya sistemi mərkəzi və yerli icra hakimiyyəti strukturlarına verilən tapşırıqların yeni texnoloji metodlarla qiymətləndirilməsinə, elektron nəzarətin təşkilinə imkan verəcək. Bütün bunlar ilk növbədə ölkədə insan hüquq və azadlıqlarının təmini baxımından vacib əhəmiyyət kəsb edir.

### Sosial siyasət yenə də öndədir

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də sosial siyasətin təminatı sahəsində başlıca hədəflərin aydın və əhatəli şəkildə əksini tapması da mühüm məqam kimi qeyd olunmalıdır. Sənəddə yüksək inkişaf yalnız iqtisadi artım göstəricisi olaraq deyil, həm də cəmiyyətin bütün üzvlərinin sosial rifahının yüksəldilməsi baxımından vacib amil kimi dəyərləndirilir: *"İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkədə artan gəlirlər daha geniş iqtisadi imkanlar yaratmalı, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunmalı, xüsusilə qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşmalıdır. Məşğulluqda özəl sektorun payının artması üçün zəruri stimullar yaradılmalı, muzdla işləyənlərin sayında özəl sektor üzrə işəgötürənlərin payı üstünlük təşkil etməlidir".*

Qarşıdakı 10 ildə ölkədə aparılacaq iqtisadi islahatlar ümumi inkişafdan hər bir vətəndaşın layiqli şəkildə bəhrələnməsinə, yüksək və ədalətli sosial təminat sisteminin, inklüziv cəmiyyətin yaradılmasına, paytaxt və regionların tarazlı inkişafına xidmət edəcək. Yüksək inkişaf səviyyəsinə adekvat olaraq cəmiyyət üzvlərinin sosial rifahının, sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılması, səmərəli məşğulluğun təmini, məşğulluqda özəl sektorun payının yüksəldilməsi, qeyri-formal məşğulluğun qarşısının alınması, gəlirlərin leqallaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində işlərin görülməsi nəzərdə tutulur.

Sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə mümkün zəruri tədbirlərin uğurla reallaşmasına da yeni imkanlar açıb. Ümumilikdə ölkə vətəndaşlarına dövlət qayğısının artırılması və onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə son 15 ildə 50-dən çox fərman və sərəncam imzalanıb. Bunlara misal olaraq "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)", Azərbaycan Respublikası regionlarının (2009-2013, 2013-2018 və 2019-2023-cü illər) sosial-iqtisadi inkişafı dövlət proqramlarını, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər vacib sənədləri göstərmək olar.

Pandemiya şəraitində bir sıra Avropa ölkələrində büdcə xərclərinin azaldıldığı və ciddi sosial gərginliyin müşahidə edildiyi halda son 1 ildə Azərbaycanda sosialyönümlü layihələrin reallaşdırılmasında hansısa ləngiməyə və yaxud çətinliyə rast gəlinməyib. Yeni növ koronavirusun geniş yayılmasının iqtisadi fəallığa və büdcə daxilolmalarına mənfi təsirlərinə rəğmən 2020-ci ildə pensiya, prezident təqaüdü, müavinət və ünvanlı sosial yardım üzrə ödənişlərə əvvəlki ilə nisbətən 20 faiz və ya 5 milyard 743 milyon manat çox vəsait yönəldilib. Bu isə 2019-cu ilə nisbətən 1 milyard dollar çoxdur. 2021-ci ildə sosialyönümlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 38,9 faiz və ya 11 milyard 111,9 milyon manat təşkil edir. Bu vəsaitin 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çox olması sosial təminat və sosial müdafiə tədbirlərinin daha da genişləndirilməsinə əlverişli imkanlar açır.

Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 5 fevral 2021-ci il tarixli sərəncamı ölkədə aparılan sosialyönümlü siyasətin davamı olaraq pandemiyanın davam etdiyi hazırkı şəraitdə də ölkənin qarşıya qoyduğu hədəfləri inamla gerçəkləşdirdiyini göstərir. İndeksləşmə nəticəsində artım ümumilikdə 1 milyon 140 min pensiyaçını (pensiyaçıların 93 faizi) əhatə edir. 2020-ci il üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə müvafiq olaraq pensiyaların indeksləşdirilməklə 11,4 faiz artırılması pensiya hüququ əldə etmiş vətəndaşların sosial rifah halının yüksəldilməsi baxımından əhəmiyyətlidir.

Hazırda Azərbaycan minimum pensiyanın məbləğinə görə alıcılıq qabiliyyəti indeksi üzrə MDB-də birinci yeri, orta pensiyanın alıcılıq qabiliyyəti üzrə isə ikinci yeri tutur. Bu, müsbət tendensiya olaraq ölkəmizdə sosial siyasətin səmərəlilik göstəricilərindən biridir.

### "Böyük Qayıdış" proqramı

Azərbaycan 44 günlük Vətən müharibəsinin yekunu olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edib. Hazırda respublikamızın qarşısında duran ən ümdə məsələ qələbənin əbədiləşdirilməsi üçün doğma torpaqlarından köçkün düşən insanların öz yerlərinə qayıdışını təmin etməkdir. Bu mənada "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə qayıdışla bağlı xüsusi bəndin yer almasının mühüm siyasi və iqtisadi əhəmiyyəti var.

"Böyük Qayıdış" proqramı vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasında körpü rolunu oynayacaq. Azərbaycanın regionda beynəlxalq nəqliyyat-logistika dəhlizinin bərpası istiqamətindəki təşəbbüsləri və həyata keçirdiyi layihələr ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Azərbaycanın tarixi qələbəsinin nəticələrinin möhkəmləndirilməsi və əbədiləşdirilməsi üçün işğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevriləcək, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılacaq.

Planlı şəkildə görülmüş işlərlə hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların məskunlaşması üçün əlverişli imkanlar açacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayışın təmin edilməsi, müasir infrastrukturun qurulması, xidmətlərin əlçatan olması nəzərdə tutulur. Bundan başqa, regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin ediləcək.

Milli prioritetdə əksini tapmış məsələlərin həlli işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyini bərpa edəcək. Yeni yanaşmaların, müasir innovasiyaların tətbiq edildiyi bu bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevriləcək, ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin 19 yanvar 2021-ci il tarixli "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" (QDF) fərmanı işğaldan azad edilmiş ərazilərimizin dövrün tələbləri səviyyəsində bərpası və yenidənqurulması prosesinin ölkəmiz üçün prioritet məsələlərdən olduğunu bir daha təsdiqləyib. Qurumun yaradılmasında başlıca məqsəd işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata, yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsidir.

2021-ci ilin dövlət büdcəsində ərazilərimizin bərpası və yeniqənqurulması üçün 2,2 milyard manat vəsaitin ayrılması planlaşdırılan işlərin əhatə dairəsi, miqyası və intensivliyi ilə bağlı əyani mənzərə yaradır. Növbəti illərdə 1,5 milyard manatdan az olmayacaq bu vəsaitlərdən məqsədyönlü, şəffaf və ünvanlı istifadənin təmini məqsədilə yeni, müsbət reputasiyalı, şəffaf idarəetməyə malik publik hüquqi şəxsin yaradılması obyektiv zərurətdən irəli gəlir. QDF-nin Müşahidə Şurasında aidiyyəti bir sıra dövlət qurumlarının rəhbərlərinin təmsil olunması bərpa və yeniqənqurma işləri zamanı koordinasiyanın sürətlənməsinə və idarəçilikdə səmərəliliyin yüksəlməsinə imkan verəcək. Məqsəd həm də işğaldan azad olunmuş ərazilərin Cənubi Qafqaz regionunda abad və müasir zonaya çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərin vahid mərkəzdən reallaşdırılmasıdır.

"Qarabağ Dirçəliş Fondu" böyük biznes potensialına malik olan işğaldan azad edilmiş ərazilərimizə sərmayələr üçün etibarlı təminat mexanizmləri formalaşdırmaqla, eyni zamanda yerli və xarici sərmayələr təşviq edəcək. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün dörd mərhələ üzrə fəaliyyət nəzərdə tutulur. 1) Xüsusi idarəetmə forması və təhlükəsizlik; 2) Strateji əhəmiyyətli infrastruktur məsələlərinin həlli; 3) Sosial xidmətlərin təmin edilməsi; 4) İqtisadiyyatın yenidən qurulması və davamlı inkişaf.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi-sursatdan (PHS) təmizlənməsini təhlükəsizliyin təminatı, habelə "Böyük Qayıdış" proqramı baxımından prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu zərurət onunla şərtlənir ki, Ermənistan beynəlxalq hüquq normalarını pozaraq 30 ilə yaxın müddətdə işğal altında saxladığı ərazilərdə təkcə təmas xəttinə yaxın əraziləri deyil, ümumilikdə bütün rayon və şəhərləri, yolları, yaşayış binalarını və strateji yüksəklikləri minalayıb.

Azərbaycan dəfələrlə mina basdırılmış ərazilərin xəritəsini tələb etsə də, destruktiv mövqe nümayiş etdirən Ermənistan tərəfi buna məhəl qoymayıb. Bu, təcavüzkar ölkənin kommunikasiyaların bərpası, qarşılıqlı etimad, sülh və təhlükəsizlik mühitinin formalaşdırılması istiqamətindəki regional təşəbbüslərə qeyri-səmimi yanaşdığını göstərir. Ermənistanın beynəlxalq hüquqa zidd davranışlarına baxmayaraq, Azərbaycan güclü iqtisadi potensialı hesabına qısa zamanda işğaldan azad edilmiş əraziləri mina və PHS-lərdən təmizləmək və genişmiqyaslı abadlıq-quruculuq layihələrinin icrasına başlamaq əzmindədir.

Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması və fəaliyyətə başlaması ərazilərimizin mina və PHS-lərdən təmizlənməsi sahəsində aparılan işlərin daha keyfiyyətlə həyata keçirilməsi, mülki əhalinin mümkün təhdidlər barədə məlumatlandırılması və maarifləndirilməsi baxımından əhəmiyyətlidir. Dünyanın ən müasir, qabaqcıl minatəmizləyən texnika, maşın, mexanizm və avadanlıqlarının, eləcə də minatəmizləyən robotların ölkəmizə gətirilməsi bu prosesin daha təhlükəsiz və peşəkar səviyyədə reallaşdırılmasına, sonrakı mərhələdə dəymiş ziyanın dəyərləndirilməsinə və bərpa işlərinin başlanmasına imkan verəcək.

*Şübhəsiz, gələcəyi proqnozlaşdırmadan, inkişafın əsas mərhələlərini, görüləcək işlərin ardıcıllığını müəyyən etmədən, mümkün nəticələri hesablamadan hansısa ciddi uğurlar qazanmaq mümkün deyil. Hər bir hökumətin gələcəyə dair tövsiyə, zəmanət verməyə, xüsusən dövlətin inkişaf strategiyası və taktikası üzrə konkret proqramlar, konsepsiyalar təqdim etməyə qadir olması vacib şərtdir. Bu baxımdan əminliklə demək olar ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ölkədə islahatların daha da sürətləndirilməsi, yeni idarəetmə modelinin formalaşdırılması və ictimai həyatın bütün sahələrində köklü dəyişikliklərin reallaşdırılması baxımından yeni imkanlar açır.*

**Səttar MÖHBALIYEV,**
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# İQTİSADİ İNKİŞAF və SOSİAL RİFAH






## İndi dünya Azərbaycanı həm də qaz ixrac edən ölkə kimi tanıyır

*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, Azərbaycan qazının böyük bir hissəsi də "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları hesabına formalaşır. BP-nin əməliyyatçılıq etdiyi, SOCAR da daxil olmaqla bir qrup dünya şöhrətli şirkətin tərəfdaşlığı ilə işlənən bu yataqlar blokundan neftlə yanaşı səmt qazı da alınır. Çıxarılan qazın bir hissəsi təzyiqi saxlamaq üçün yenidən laylara vurulur, xeyli hissəsi isə Neft Daşlarındakı qurğu və Səngəçal terminalı vasitəsilə ölkəmizin daxili istifadəsinə verilir. Keçən il Azərbaycanda hasil olunan mavi yanacağın 11,7 milyard kubmetri məhz AÇG-nin payına düşüb.

"Şahdəniz" yatağından isə il ərzində 18,1 milyard kubmetr qaz çıxarılıb. Hazırda "Şahdəniz"dən mavi yanacaq yatağın işlənməsinin hər iki mərhələsi çərçivəsində hasil edilir. Birinci mərhələnin qazı "Şahdəniz Alfa", ikincininki isə "Şahdəniz Bravo" platformaları vasitəsilə əldə olunur.

Bütün bunlar ölkəmizə qaz ixracını getdikcə artırmağa imkan verir. Məsələn, ötən il xaricə qaz satışı 13,5 milyard kubmetr təşkil edib. Bu da ondan əvvəlki ilə nisbətən 1,8 milyard kubmetr, yəni 15,6 faiz çoxdur .

Energetika Nazirliyinin məlumatına görə, il ərzində ölkəmizdən Türkiyəyə 11,1 milyard kubmetr qaz ixrac olunub. Mavi yanacaq həcmləri qardaş ölkəyə Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri ilə göndərilib. 4,7 milyard kubmetr qaz TANAP-la, yanacağın qalanı isə BTƏ ilə ötürülüb. Avropa üçün nəzərdə tutulan 0,01 milyard kubmetr qaz boru xəttinə sınaq məqsədilə vurulub.

Xatırladaq ki, BTƏ Azərbaycan qazını Türkiyəyə 2007-ci ildən nəql edir. Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq Azərbaycanın və Gürcüstanın ərazisində 692 kilometr məsafə boyu uzanan Cənubi Qafqaz Boru Kəmərinə (CQBK) Gürcüstan-Türkiyə sərhədində daha bir xətt qoşulur. 280 kilometrlik bu xətt CQBK-dan qəbul etdiyi qazı Türkiyədə Ərzurumadək aparır. Odur ki, Səngəçal-Ərzurum marşrutlu bu uzun kəmər bütövlükdə BTƏ adlanır.

Azərbaycan qazını genişləndirilmiş CQBK-dan qəbul edən TANAP isə 2018-ci ilin ortalarından fəaliyyət göstərir. TANAP "Cənub qaz dəhlizi"ni yaradan üç kəmərdən ikincisi və ən böyüyüdür. O, Türkiyənin 20 vilayətindən keçərək Yunanıstan sərhədinə çatır və orada Trans-Adriatik Qaz Boru Kəməri (TAP) ilə qovuşur.

2020-ci ildə Gürcüstana da mavi yanacaq ixracı ahəngdar davam edib. CQBK ilə qonşu ölkəyə ümumilikdə 1,1 milyard kubmetr qaz göndərilib ki, bunun da 0,9 milyard kubmetri "Şahdəniz"dən, qalanı SOCAR-ın istismar etdiyi yataqlardan hasil olunandır. Gürcüstana eləcə də Qazıməmməd-Qazax qaz kəməri ilə mavi yanacaq ötürülür. Bu xətlə əsasən SOCAR qazı göndərilir. Keçən il Gürcüstana Qazıməmməd-Qazax marşrutu ilə 1,2 milyard kubmetr qaz çatdırılıb.

Qeyd edək ki, Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəməri də artıq fəaliyyətə başlayıb. Keçən il dekabrın 31-dən bu kəmərlə kommersiya təbii qazının nəqlinə start verilib. Beləliklə, Yunanıstanın Saloniki şəhərində tikintisinin bünövrəsi qoyulandan 4 il yarım sonra 878 kilometrlik qaz nəqliyyat sistemi olan TAP istifadəyə verilib. Kəmər Yunanıstandan, Albaniyadan, Adriatik dənizinin altından keçərək İtaliyada quru sahəyə çıxır və bir neçə kilometrdən sonra bu ölkənin qaz şəbəkəsinə qoşulur. Yəni TAP-ın əməliyyat mərhələsinə daxil olması ilə "Cənub qaz dəhlizi" tam işə salınıb.

TAP "Cənub qaz dəhlizi"nin sonuncu seqmentidir, TANAP hər il daşıdığı 16 milyard kubmetr qazın 10 milyard kubmetrini bu kəmərə ötürəcək. Başqa sözlə, TAP Azərbaycandan Avropa bazarlarına illik 10 milyard kubmetr yeni qaz tədarükünün həyata keçirilməsi üçün qovşaq layihəsidir.

TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Kəmərin ötürmə imkanlarını genişləndirmək üçün ən azı hər iki ildənbir bazar sınaqlarının aparılması nəzərdə tutulur. Məqsəd kəmərin ümumi ötürücülük gücünün 20 milyard kubmetrədək artırılmasıdır. Bu dəfə TAP üzrə bazar sınaqlarının nəticələrinin cari ilin oktyabr ayınadək əldə olunması gözlənilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 11 faizdən çox artmışdır

Cari il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən, ötən illə müqayisədə 45,2 min nəfər və ya 2,7 faiz artaraq 1 milyon 691,8 min nəfər olmuşdur.

Dövlət Statistika Komitəsi bildirir ki, onlardan 910,8 min nəfəri iqtisadiyyatın dövlət, 781 min nəfəri qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,6 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,3 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,8 faizi tikinti, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2020-ci ilin ilkin məlumatlarına əsasən, ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 11,4 faiz artaraq 707,3 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## Rusiya və Azərbaycan kombayn istehsalı üzrə müştərək müəssisənin yaradılması məsələsini müzakirə edir

Rusiyanın kənd təsərrüfatı texnikası istehsal edən "Rostselmaş" şirkətlər qrupu Azərbaycanda kombayn istehsalına başlanması məsələsini müzakirə edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın Rostov vilayəti qubernatorunun müavini İqor Sorokin deyib.

İ.Sorokin xatırladıb ki, Özbəkistan ilə artıq belə əməkdaşlıq əlaqələri qurulub. Özbəkistanın Çirçik şəhərində yaradılmış müştərək müəssisə yüksək texnologiyalı kənd təsərrüfatı texnikası istehsal edir.

"İnterfaks" agentliyinin məlumatına görə, "Rostselmaş"ın baş direktoru Valeri Maltsev hələ 2019-cu ildə Azərbaycanda kənd təsərrüfatı texnikası yığılmasında ixtisaslaşan müəssisə yaradılması planı barədə məlumat vermişdi. Layihənin 2020-ci ildə gerçəkləşdirilməsi və ilkin mərhələdə 50-dək kombayn istehsal edilməsi planlaşdırılırdı.

2019-cu ildə "Rostselmaş" və "Azərmaş" Azərbaycanda "Nova" markalı kombaynların istehsalı müəssisəsinin yaradılması ilə bağlı müqavilə də imzalayıb.

## Keçən il 10,3 min hektarda meşəbərpa tədbirləri görülmüşdür

Ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti tərəfindən 10382 hektar meşə fondu sahələrində meşəbərpa tədbirləri həyata keçirilmişdir.

Görülmüş tədbirlər çərçivəsində 527,3 hektar sahədə meşə əkinləri, 121,2 hektar sahədə meşə səpinləri işləri aparılmış, 68,5 hektar sahədə meşə-bağlar, 5 hektar sahədə tez böyüyən ağac cinslərindən ibarət sənaye əhəmiyyətli plantasiyalar salınmış və 9660 hektar sahədə təbii bərpaya kömək göstərilmişdir. Ümumilikdə xidmət göstərilmiş meşə əkinlərinin, səpinlərinin və meşə-bağlarının sahəsi 21668,6 hektar təşkil etmişdir.

Bundan başqa, səpin sahələrində 9,6 hektar sahəyə toxum səpilmiş, 2,0 hektar çilik kökləndirməsi sahələrinə 93,2 min ədəd çilik basdırılmışdır.

2020-ci ildə meşə fondu sahələrindən 51,0 ton meyvə, meşə ağac və kol cinslərinin toxumları tədarük edilmişdir ki, bunların da 1,6 tonu qoz, 0,5 tonu badam, 0,4 tonu digər meyvə ağaclarının, 46,8 tonu palıd, 1,7 tonu digər meşə ağacları və kol cinslərinin toxumlarının payına düşmüşdür.

## Qazaxda yaz-tarla işlərinə hazırlıq görülür

### İlk növbədə suvarma arx və kanalları təmizlənir



Azərbaycanda digər sahələrlə yanaşı, aqrar sektorun inkişafı da dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Kənd təsərrüfatının inkişafı üçün həyata keçirilən tədbirlər ölkəmizdə bu sahəni qeyri-neft sektorunun öncül sahəsinə çevirmişdir.

Artıq neçə ildir əsasən məhsuldarlıq hesabına məhsul istehsalı və ixracda kənd təsərrüfatı məhsullarının payı artır, ənənəvi sahələr dirçəlir, dövlət tərəfindən sahibkarlara, fermerlərə verilən dəstək davam edir.

Neft sənayesi və tikinti sektorundan sonra ölkə iqtisadiyyatında üçüncü böyük sahə olan aqrar sektor həm də işsizliyin aradan qaldırılmasında və əhalinin sosial vəziyyətinin yaxşılaşmasında mühüm rol oynayır. Eyni zamanda kənd təsərrüfatının inkişafı həm də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində aparıcı rola malikdir. Bu baxımdan aqrar siyasətin prioritet olması təsadüfi deyil və dövlətin strateji maraqlarına xidmət edir.

Qazaxda məhsuldarlığın artmasının başlıca səbəblərindən biri kimi bitkilərin suvarma suyu ilə təminatına xüsusi fikir verilir. Rayonda mövcud olan suvarma arx və kanalların təmir olunması, kolkosdan və lildən təmizlənməsi bu istiqamətdə görülən məqsədyönlü işlərdir ki, bu da öz növbəsində nəticəsiz qalmır. Təkcə keçən il 331,49 kilometr arx və kanallarda təmizlik işləri həyata keçirilmişdir. İşlərin 124,67 kilometri texnika vasitəsilə, 206,82 kilometri isə əl əməyi ilə görülmüşdür. Ümumiyyətlə, son 4 ildə rayonda 1211,94 kilometr arx və kanalllarda təmizlik işi aparılmışdır.

Yaz-tarla işlərinə hazırlıqla əlaqədar hazırda rayon suvarma sistemləri idarəsinin əməkdaşları rayon sakinlərinin iştirakı ilə əksər kəndlərdə mövcud olan suvarma arx və kanallarında təmizlik işləri aparırlar. Bu il 256 kilometr suvarma arxlarında təmizlik işlərinin aparılması nəzərdə tutulur. Artıq işin yarıdan çoxu görülmüşdür. Suvarma sistemləri idarəsinin kollektivi həmişə olduğu kimi, bu il də təmizlik işlərini optimal müddətdə başa çatdırmağı qarşısına məqsəd qoymuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Sosial ədalətin təmin edilməsi dövlətin əsas prioritetidir

**Ölkədəki inkişafdan hər bir vətəndaşın layiqincə bəhrələnməsi qarşıya vacib vəzifə kimi qoyulub**



*Əvvəli 1-ci səh.*

Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, eləcə də bu sahədə aparılan uğurlu islahatlar ölkə əhalisi ilə yanaşı, beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Beynəlxalq Sosial Təminat Assosiasiyasının prezidenti Yoakim Bröye ölkəmizdə sosial sahədə aparılan islahatları, əldə olunan nailiyyətləri layiqincə dəyərləndirir. O, həmçinin dövlətimizin bu sahədə gördüyü işlərin pandemiya dövründə əhalinin sosial rifahına daha müsbət təsir göstərdiyini vurğulayır, sosial sahədə atılan addımların təqdirəlayiq olduğunu bildirir, Azərbaycanda əhalinin sosial müdafiəsi sahəsində görülən işləri dünyaya nümunə göstərir.

Əhalinin sosial müdafiəsi sahəsində 2030-cu ilə qədər daha bir sıra uğurlu layihələr icra ediləcək. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də bu sahəyə böyük önəm verilir. Həmin sənəddə qeyd edilir ki, ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradacaq. Bununla yanaşı, sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə ölkədə pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəyə çatdırılması qarşıya bir vəzifə kimi qoyulur. Bunun üçün pensiya təminatı sisteminin uzunmüddətli inkişafı, onun maliyyə dayanıqlığının gücləndirilməsi, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyinin təmin edilməsi də milli prioritetlərdə əsas kimi götürülür.

Milli prioritetlərdə cəmiyyətdə sosial ədalətin təmin edilməsi vacib vəzifə kimi qeyd edilir. Çünki dünyada baş verən iqtisadi inkişaf özü ilə bərabər bir sıra problemlər də yaradır. Xüsusilə yeni texnika və texnologiyalardan istifadə əhalinin məşğulluğunun təminatına mənfi təsir göstərir. Həmin problemlərlə qarşılaşmamaq üçün isə davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bir sözlə, ölkədəki inkişafdan hər bir vətəndaş bərabər şəkildə bəhrələnməli, yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət, paytaxt və regionların tarazlı inkişafı təmin edilməlidir. Dövlətin 2030-cu ilədək həyata keçirəcəyi iqtisadi layihələrin gətirəcəyi faydalardan ölkə vətəndaşlarının bəhrələnməsi milli prioritetlərin əsas məqsədidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Sumqayıtın ictimai nəqliyyatı da nağdsız ödəniş sisteminə keçir

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də yol və nəqliyyat infrastrukturunun yenidən qurulmasıdır.

Azərbaycanın hər yerində olduğu kimi, Sumqayıtda da yolların təmiri və yenidən qurulması istiqamətində geniş işlər görülür. Çəkilən yollar isə nəqliyyatda yenilənmə tələb edir.

Bu gün Sumqayıtda nəqliyyat infrastrukturu yenilənən xətt üzrə inkişaf edir. Şəhərin marşrut xətlərində fəaliyyət göstərən avtobuslar müasir tələblərə cavab verən yeniliklərlə əvəzlənir. Təkcə son bir neçə ildə şəhərin 20-yə yaxın marşrut xəttinə müasir tələblərə cavab verən 200-dən çox avtobus verilib.

Sumqayıtın ictimai nəqliyyat sistemində daha bir yeniliyin tətbiqinə başlanılıb. Şəhər icra hakimiyyəti və "Paşa Bank"-ın birgə layihəsi olaraq nəqliyyatda nağdsız ödəniş sisteminə keçilir. Yeni ödəniş sistemi ilk olaraq 9 saylı marşrut xətti üzrə hərəkət edən avtobuslarda tətbiq olunub. Artıq avtobuslarda xüsusi cihazlar - validatorlar quraşdırılıb. Sər-



nişinlər kontaktsız işarəsi olan bütün bank, əməkhaqqı, pensiya və təqaüd kartları ilə, eyni zamanda NFC funksiyası olan cihazlar, virtual kartlar, hətta xarici bank kartları ilə ictimai nəqliyyatda ödəniş edə bilirlər. Digər şəxslər isə yalnız Sumqayıtda keçərli olan ictimai nəqliyyat kartlarından istifadə edirlər.

Hazırda şəhərdaxili hərəkət edən bütün marşrutlarda nağdsiz ödəniş cihazları quraşdırılır. Kartla nağdsız ödəniş sistemi il ərzində bütün marşrut xətti üzrə hərəkət edən avtobuslarda tətbiq olunacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Şirvan STEAM mərkəzi ilə tanışlıq




Fevralın 9-da Şirvan şəhəri Kimya-Biologiya Təmayüllü Respublika Liseyinin nəzdindəki STEAM mərkəzi ilə tanışlıq olub. Tədbirdə təhsil naziri Emin Əmrullayev, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, təhsil naziri Emin Əmrullayev tanışlıq zamanı bildirib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Təhsil Nazirliyinin dəstəyi ilə 2019-2020-ci tədris ilinin əvvəlindən STEAM layihəsinin məktəblərimizdə tətbiqinə başlanılıb. STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərməklə yanaşı, onlara mühəndislik səriştələri öyrədir.

Nazir diqqətə çatdırıb ki, mərkəz bütün yaş qruplarının istifadəsi üçün nəzərdə tutulub və STEAM məzmununa uyğun lazımi innovativ texnologiyalarla tam təmin olunub. Mərkəzdə yaradılmış imkanlardan sözügedən liseylə yanaşı, regionun digər məktəblərinin şagird və müəllimləri də istifadə edə bilərlər.

Bildirilib ki, STEAM layihəsinin əsas məqsədi respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarını - kreativlik, tənqidi düşünmə, əməkdaşlığın inkişaf etdirilməsi, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir. Layihə hazırda 147 ümumtəhsil məktəbdə tətbiq olunur və 25000-dən çox şagird, 800 müəllimi əhatə edir.

Qeyd edək ki, Şirvan şəhəri Kimya-Biologiya Təmayüllü Respublika Liseyi ilə yanaşı, Təhsil Nazirliyinin tabeliyindəki Bakı Avropa Liseyi, eləcə də Abşeron rayonu Xırdalan şəhəri 3 nömrəli tam orta məktəbin nəzdində STEAM mərkəzi yaradılıb. Gəncə və Quba şəhərlərində isə bu cür mərkəzlərin layihələndirilməsinə başlanılıb. Bu mərkəzlərin sayının 10-a çatdırılması nəzərdə tutulur.

## Azərbaycan Ali Hərbi Məktəbində mədəni-kütləvi tədbir keçirilib

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində mədəni-kütləvi tədbir təşkil olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Nazirliyin nümayəndələrinin, hərbi məktəbin şəxsi heyətinin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, eləcə də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yaradıcı kollektivlərinin iştirak etdiyi tədbirdə Vətən müharibəsində qazanılan Qələbənin əhəmiyyətindən, qəhrəman oğullarımızın göstərdiyi şücaətdən bəhs olunub.

Tədbir məktəbin Vətən müharibəsinin iştirakçısı olmuş gənc zabitləri üçün hazırlanan mədəni proqramla başa çatıb.

# Azərbaycanda vaksinasiyanın ikinci mərhələsi başlandı

*Əvvəli 1-ci səh.*

Bu mənada təsadüfi deyil ki, Prezident İlham Əliyev haqlı olaraq dünyanın üz-üzə qaldığı "ədalətsiz vaksin bölgüsü"nü qabardaraq özlərini demokratiyanın beşiyi hesab edən dövlətlərin gerçək mahiyyətini üzə çıxardı. Faktlar da təsdiqləyir ki, artıq dünyanın inkişaf etmiş ölkələri bu mövzuda açıq şəkildə ədalətsizlik nümayiş etdirirlər

Ekspertlər isə qeyd edirlər ki, dünyada koronavirusun yayılma sürəti virusun ötürülmə zəncirini qıran tədbirlərin görülməsi, hər şeydən əvvəl peyvəndləmə sayəsində aşağı düşür.

İki aydır ki, dünya ölkələri koronavirus əleyhinə vaksinasiya həyata keçirir. Azərbaycanda isə vaksinasiyaya yanvarın 18-də başlanılıb. Prosesə ilk olaraq səhiyyə işçiləri cəlb edilib. Fevralın 5-nə olan məlumata görə, artıq 65 min nəfər peyvənd olunub.

Azərbaycanda vaksinasiya dövlət hesabına və könüllülük prinsipi əsasında aparılır. Ölkəmizdə Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur. Peyvəndlənmənin aparılmasında əsas məqsəd əhalidə kollektiv immunitetin yaranmasına nail olmaqdır. Epidemiologiyanın qanunlarına əsasən, istər xəstələnmə nəticəsində təbii, istərsə də vaksinasiya vasitəsilə yaranan süni immunitet əhalinin üçdə ikisində formalaşarsa, epidemik proses sönər.

Fevralın 8-dən isə ölkəmizdə peyvəndlənmənin ikinci mərhələsi - 65 yaşdan yuxarı şəxslərin COVID-19 infeksiyasına qarşı vaksinasiya prosesi start götürüb. Ölkədə yaşı 65-dən yuxarı olan təqribən 700 000 vətəndaş var. Bu kateqoriyadan olan şəxslər randevu.its.gov.az saytı vasitəsi və ya ərazi üzrə poliklinikanın qeydiyyat şöbəsi ilə telefon əlaqəsi saxlayıb öz məlumatlarını verərək qeydiyyatdan keçə bilərlər. Saytdan qeydiyyatdan keçən hər bir vətəndaşa SMS məlumat göndəriləcək. Poliklinikaya müraciət zamanı isə həmin şəxslər qeydiyyatdan keçirilərək onlara məntəqəyə gəlməli olduğu gün və dəqiq vaxt bildiriləcək.

Vaksinasiyanın ilk dozası üçün randevu götürüldükdə avtomatik 2-ci doza üçün də 28 gün sonra həmin müəssisəyə və həmin saat aralığına randevu seçilir. İkinci dozanın vurulma tarixi və digər zəruri məlumatlar vətəndaşlara tibb məntəqəsində təqdim edilən "Məlumat forması"nda öz əksini tapsa da, əlavə olaraq SMS vasitəsilə ikinci dozanın vurulma tarixi təkrar bildiriləcək.

TƏBİB-in İnfeksion Xəstəliklər üzrə işçi qrupunun üzvü Vüsalə Yaşar vurğulayıb ki, vətəndaşların COVID-19-a qarşı vaksinasiyası yalnız tibb müəssisəsində aparılmalıdır. Çünki peyvənddən sonra yarana biləcək allergik reaksiyaların qarşısının alınması yalnız tibb müəssisəsində mümkündür.

Onun sözlərinə görə, vətəndaşlar vaksinasiyadan sonra 15-30 dəqiqə ərzində tibb müəssisəsində nəzarətdə olmalıdırlar: "Peyvənddən sonra iki sutka ərzində xəstələrlə telefon əlaqəsi saxlanılır. Vaksin vurduran insanlar şikayətlərini telefonla sahə həkimlərinə bildirə bilərlər. Ciddi hal müşahidə olduqda isə sahə həkimi evə də gələ bilər".

Həkimlər qeyd edirlər ki, peyvənd vurdurduqdan sonra yüngül qızdırma, halsızlıq kimi əlamətlərin müşahidə edilməsi preparatın orqanizmə yaxşı təsir etdiyini və qoruyuculuğun yüksək səviyyədə əmələ gələcəyini göstərir. Lakin bəzən vətəndaşlar peyvəndin bu cür təsirlərini yan təsirlər olaraq qəbul edirlər. Halbuki bunlar yan təsirlər deyil, peyvəndə aid normal əlamətlərdir.

Hətta şəkər, hipertoniya, böyrək çatışmazlığı kimi xəstəliklər ölkəmizə gətirilən peyvəndlərin tətbiqi üçün əks göstəriş deyil. Əks göstərişlər onu vurdurmaq istəyən şəxslərdə daha əvvəl bu cür peyvəndlərə qarşı ciddi allergik reaksiyanın olmasıdır.

Xatırladaq ki, Nazirlər Kabinetinin 16 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial cəhətdən və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır. Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", "DOST" mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərin, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri olanlar, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddir.

Lakin hər kəs bilməlidir ki, peyvənd vurulan kimi insanı qorumur. Vaksinasiyadan bir müddət sonra orqanizmə yeridilmiş preparata qarşı anticisimlər, qoruyucu maddələr əmələ gəlməyə başlayır. Ona görə peyvəndi vurdurandan sonra da özümüzü qorumağa davam etməliyik. Vaksinasiya pandemiyadan tam qurtulmaq üçün yetərli deyil. Hər kəs məsuliyyətini dərk edərək sanitar-gigiyenik qaydalara əməl etməlidir. Gündəlik yoluxma sayının azalması və məhdudiyyətlərin aradan qaldırılması heç kəsdə arxayınlıq yaratmamalıdır. Cüzi laqeydlik, məsuliyyətsizlik yoluxma sayının yenidən artmasına səbəb ola bilər. Ona görə də mübarizəni sonacan aparmalı, pandemiya üzərində tam qələbə çalana qədər karantin rejiminin qaydalarına ciddi yanaşmalıyıq.




***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Azərbaycan dünyada ilk olaraq "Sputnik V" və "AstraZeneca" şirkətlərinin COVID-19-a qarşı vaksinlərin birgə tətbiqi tədqiqatına icazə verdi




Fevralın 8-də Səhiyyə Nazirliyi "Sputnik V" vaksininin və "AstraZeneca" şirkətinin Oksford Universiteti ilə birgə işləyib hazırladığı vaksinin birgə tətbiqi üçün Azərbaycan Respublikasında kliniki tədqiqatların aparılması üçün icazə verib. Bu tədqiqatların cari ilin fevral ayının sonuna qədər başlanılması nəzərdə tutulur. Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən bildirilib.

Daha əvvəl N.F.Qamaleya adına Elmi-Tədqiqat Mərkəzi, Rusiyanın Birbaşa İnvestisiyalar Fondu (RBİF), "AstraZeneca" şirkəti və "R-Pharm" Şirkətlər Qrupu koronavirus vaksininin hazırlanması sahəsində Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə 2020-ci ilin dekabrında əməkdaşlıq haqqında birgə memorandum imzalayıblar.

Dünyada vaksinlərin ilk birgə tətbiqi dekabrın 24-də qeydə alınan kliniki sınaqların protokolu çərçivəsində həyata keçirilir.

Tədqiqatlar "Sputnik V" vaksininin və Oksford Universiteti ilə birgə "AstraZeneca" şirkəti tərəfindən işlənib hazırlanmış vaksinin kombinasiya edilmiş tətbiqinin immunogenliyini və təhlükəsizliyinin qiymətləndirilməsini nəzərdə tutur. Tədqiqat proqramı bir neçə ölkənin ərazisində 6 ay davam edəcək. Bu tədqiqatların aparılmasına hər bir ölkədən 100 könüllünün cəlb edilməsi planlaşdırılır.

"Sputnik V" vaksini insan adenovirusu əsasında iki inyeksiya üçün eyni vektordan istifadə edən vaksinlərlə müqayisədə daha güclü və uzunmüddətli immun cavabını təmin etməyə imkan verən iki müxtəlif vektorun kombinasiyasının unikal texnologiyasından istifadə edir. Birinci və ikinci immunizasiya üçün iki müxtəlif adenovirus vektorunun tətbiqi üzrə sxem birinci immunizasiyadan sonra formalaşan ilk vektor immunitetinin qarşısını almağa imkan verir və bununla da ikinci inyeksiyanın səmərəliliyini artırır və uzunmüddətli immunitet yaradır. O cümlədən bu sxem sayəsində "Sputnik V" vaksininin səmərəliliyi 90 faizdən çox olur, bununla belə preparat xəstəliyin ağır hallarına qarşı tam müdafiəni təmin edir. Koronavirusa qarşı mövcud olan qabaqcıl vaksinlər arasında hazırda yalnız "Sputnik V" iki müxtəlif vektor texnologiyasına malikdir.

Vaksin "Vaccitech" şirkəti ilə birlikdə Oksford Universiteti tərəfindən hazırlanıb. Bu şimpanzedə infeksiyaya səbəb olan adi soyuqdəymə virusunun (adenovirusun) zəifləmiş versiyası əsasında şimpanzenin replikasiya qüsurlu virus vektorundan istifadə edir və SARS-CoV-2 (severe acute respiratory syndrome coronavirus 2 - ikinci növ koronavirusun səbəb olduğu ağır kəskin respirator sindromu) zülalının genetik materialından ibarətdir. Vaksinasiyadan sonra zülalın səthi sintezi baş verir. Bu da bu virusun ehtimal edilən sonrakı infeksiyası zamanı SARS-CoV-2-yə qarşı immunitet reaksiyasının yaranmasına səbəb olur.


### Ağsu Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün nəzərdə tutulan əsaslı təmir üçün beton qarışıqlarının satın alınması məqsədilə

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqələndirici şəxs: Kazımov Kamran
Ünvan: Ağsu şəhəri, M.Hüseyn, 1
E-mail: sahmemmeda@mail.ru
Tel: 020-22-6-53-68
İştirak haqqı: 150 (bir yüz əlli) manat
LOT 1: Əsaslı təmir üçün beton qarışıqlarının satın alınması.

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**

**Adı: Ağsu Suvarma Sistemləri İdarəsi**
**VÖEN:3500028611**
**H/H: AZ46CTRE00000000000002352901**
**Dövlət Xəzinədarlıq Ağentliyi**
**KOD: 210005**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.: CTREAZ22**
**Büdcə təsnifatının kodu: 142330**
**Büdcə səviyyə kodu: 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox) qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 02 mart 2021-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə 11 mart 2021-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 12 mart 2021-ci il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

### Ağsu Suvarma Sistemləri İdarəsi 2021-ci il üçün nəzərdə tutulan cari təmir üçün beton qarışıqlarının satın alınması məqsədilə

***açıq tender elan edir***

